*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    31 mart 2018-ci il  № 24 (2240)    Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir



Hər bir vətəndaş müharibənin tələblərinə uyğun yaşayır, işləyir. Xalq şairi Səməd Vurğunun Böyük Vətən müharibəsi başlayanda yazdığı "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən" - misraları həmişə müasirdi. Ordu cəmiyyətin mühüm tərkib hissələrindən olduğu üçün ordu-ictimaiyyət münasibətləri müharibə şəraitinə müvafiq qurulur. Bu amil 2016-cı ilin aprelində də təsdiqləndi. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünün, Azərbaycan əsgərinin vətənsevərliyinin, qətiyyətinin nəticəsi kimi tarixləşdi. Bu qələbə ermənilərin illərlə formalaşdırmağa çalışdığı rəyini çiliklədi - Azərbaycan Ordusunun hissələri ermənilərin möhkəmləndirilmiş sədlərini dağıtdı, qısa müddətdə Lələtəpə, Bayraqtəpə kimi əhəmiyyətli yüksəkliklər də daxil olmaqla 2000 hektardan çox ərazi ermənisizləşdirildi. Döyüşlər, döyüşlərin gedişi, nəticəsi təsdiqlədi ki, Azərbaycan Ordusu yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu döyüşlər ordu ilə ictimaiyyət münasibətlərinin müharibə şəraitinin tələbləri səviyyəsində olduğunu, ordunun xalqa arxalandığını, xalqın orduya inandığını da təsdiqlədi. Bu birlik güc deməkdir, ordunun döyüş hazırlığını tamamlayan mənəvi stimuldur.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel döyüşlərini və onun nəticələrini yüksək dəyərləndirmiş, bu döyüşlərin dərsliklərə salınmasının zəruri olduğunu qeyd etmişdir.

Ermənistan silahlı birləşmələri təmas xəttində irimiqyaslı təxribatlar törətmək istəyəndə Azərbaycan Ordusunun hissələri əks-hücumla bunun qarşısını aldı, aprel zəfəri kimi tarixləşən qələbə qazandı. Bu qələbə Böyük Qələbənin başlanğıcıdır. İrimiqyaslı təlimlər ordumuzun gücünün artmaqda olduğunun göstəricisidir. Ali Baş Komandanın dedikləri - "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır" - Böyük Qələbənin uzaqda olmadığına inamdır. Xalq bu inamı Böyük Qələbəyə çatdıracaq döyüş yolunu nurlandıran işıq bilir.

Xalqımıza daha böyük zəfəri - Böyük Qələbənin sevincini sən yaşadacaqsan, Azərbaycan əsgəri!

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Türkiyə Respublikasına rəsmi səfəri

*Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə istər siyasi, iqtisadi, istərsə də hərbi münasibətlərin möhkəmləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri yüksək səviyyədə təmin olunub.*





Bu baxımdan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun martın 28-də Türkiyə Respublikasına səfəri də Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf etdirilməsində xüsusi əhəmiyyət daşıyır.

Martın 28-də Ankarada Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akar arasında görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri, regionda sabitliyin təmin edilməsində Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin rolu müzakirə olunub.

Tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq, birgə təlimlərin keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov martın 28-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib. Atatürkün məzarı önünə əklil qoyan və xatirəsini ehtiramla yad edən Müdafiə naziri xatirə kitabına ürək sözlərini yazıb.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov martın 28-də Ankaradakı Heydər Əliyev Parkını, həmçinin Ümummilli Liderin abidəsini ziyarət edib.

* * *

Ankarada rəsmi səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyə Respublikasının Müdafiə Sənayesi Komitəsinin sədri İsmayıl Demir ilə görüşü də tərəflərin hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi baxımından əhəmiyyət kəsb edib.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov martın 29-da Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Canikli ilə də görüşüb.

Əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə vurğulanıb ki, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq ikitərəfli əsasda və NATO tərəfindən həyata keçirilən proqramlar çərçivəsində aparılır. Qeyd olunub ki, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daim inkişaf edir.

Görüşdə regional təhlükəsizlik, Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələrin əsas istiqamətləri, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, birgə təlimlərin keçirilməsi, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Martın 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovu qəbul edib.

* * *

Martın 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Quru Qoşunları Məktəbini ziyarət edib. Nazir məktəbin rəhbərliyi və burada təhsil alan azərbaycanlı kursantlar ilə görüşüb.

Müdafiə naziri məktəbin fəaliyyəti və buradakı təlim-tədris prosesi barədə ətraflı məlumatlandırılıb. Nazir kursantlarımızın hazırlıq səviyyəsi ilə maraqlanıb və onlara öz tövsiyələrini verib.

Görüşdən məmnunluğunu ifadə edən general-polkovnik Zakir Həsənov ölkələrimizdə ordu quruculuğu prosesində hərbi təhsil ocaqlarının rolunu xüsusi vurğulayıb.

Sonda Azərbaycan nümayəndə heyəti kursantlarla birgə nahar edib.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri ABŞ-ın ölkəmizdə fəaliyyət müddəti başa çatan səfiri ilə görüşüb

Martın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə fəaliyyət müddəti başa çatan ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə görüşüb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***30 mart 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Ermənistan Respublikası Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Nəmirli, Baş Qərvənd, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Raket və artilleriya bölmələri döyüş atışlı təlimlər keçirir



Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq Raket və Artilleriya birləşmələrinin və bölmələrinin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə cəbhə bölgəsindəki bütün ümumqoşun poliqonlarında təlimlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, poliqonların birində keçirilən təlimdə özüyeriyən artilleriya qurğularının tətbiqi ilə praktiki döyüş atışları icra olunur. Atışların dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə artilleriya bölmələri müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə edirlər.

# “Azərbaycanın əldə etdiyi silahların keyfiyyətsiz olması barədə yayılan şayiələr təxribatdır”

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, son günlər xarici və yerli kütləvi informasiya vasitələrində Azərbaycanın Rusiyadan əldə etdiyi silahların yararsız olması ilə bağlı müxtəlif şayiələr yayılıb. Nazirlik rəsmi olaraq bildirir ki, bu kimi xəbərlər həqiqətə uyğun deyil və onların yayılması təxribat xarakteri daşıyır.

"Azərbaycan müəyyən istehsalçı ölkələrdən müxtəlif növ silahların alınması və əldə edilməsinə xüsusi diqqət yetirir. İşğal olunmuş ərazilərimizin azad edilməsi məqsədilə biz döyüş potensialımızın artırılması üçün lazım olan ən yaxşı, keyfiyyətli və effektiv hərbi vasitələri diqqətlə seçərək əldə edirik. Azərbaycan Ordusunun silahlanmasına qəbul edilən Rusiya istehsalı olan yeni silahlar müasir silah sistemlərinin yüksək tələblərinə cavab verir, eləcə də qoşunlarımızın, xüsusilə müdafiənin ön xəttində döyüş tapşırığı yerinə yetirən bölmələrimizin manevr və atəş imkanlarını xeyli artırır", - deyə nazirliyin məlumatında qeyd edilir.

# Aprel döyüşlərinin ildönümünə həsr olunmuş "Qələbəyə gedən yol" mövzusunda hərbi vətənpərvərlik tədbiri keçirilib

*Nizami Kino Mərkəzində Nəsimi rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Müdafiə Nazirliyinin dəstəyi ilə Azərbaycan Ordusunun aprel döyüşlərinin ildönümüylə əlaqədar olaraq "Qələbəyə gedən yol" adlı hərbi vətənpərvərlik tədbiri keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin rəhbər nümayəndələri, zabit, əsgər, kursant heyəti, Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyi, millət vəkilləri və digər qonaqlar iştirak etdilər.*



Tədbir açıq elan edildikdən sonra Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin ifasında Dövlət himni səsləndirildi. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra səhnəyə Dövlət bayrağı gətirildi.

Hərbi orkestrin sədaları altında əllərində aprel şəhidlərinin portretlərini tutmuş C.Naxçıvanski adına Hərbi Liseyin kursantları səhnəyə qalxdılar. Tədbir iştirakçıları aprel şəhidlərinin xatirəsinə həsr olunmuş video-çarxı böyük maraq və qürur hissiylə izlədilər.



Kursantlar filmin nümayişindən sonra torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçən Azərbaycan oğullarının qanının yerdə qalmayacağına and içdilər: "Şəhidlər doğulan gün əbədiyyət başlayır", "Şəhidlər tarix boyu ürəklərdə yaşayır", "Şəhidlər karvanını əbədiyyət daşıyır", "Şəhidlər cənnət əhli, matəm, yas saxlamazlar", "Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar"! - dedilər.

Əminliklə bildirildi ki, 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi şücaət, qəhrəmanlıq bizi böyük qələbəyə aparacaqdır. Qələbəyə gedən yolumuz aprel döyüşlərindən başlayır. Bu yol "Lələtəpə"dən və digər geri qaytardığımız doğma torpaqlarımızdan başlayır.

Daha sonra Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyinin və ictimaiyyət nümayəndələrinin mütəmadi olaraq hərbi hissələrdə şəxsi heyətlə görüşlərinə həsr olunmuş film nümayiş olundu. Qeyd edildi ki, Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri bayram günlərində hərbi hissələrdə olur, bayramları əsgərlərimizlə birlikdə ön cəbhədə qeyd edirlər.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbir iştirakçılarına Müdafiə Nazirliyinin rəhbərliyinin salamlarını və minnətdarlığını çatdırdı.



Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusunun bu gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında gün-gündən daha da gücləndiyini deyən idarə rəisi bildirdi ki, bu gün ordumuz 1992-ci ildəki ordu deyil. "Bu gün ordumuz hərtərəfli təminata malik olan bir ordudur. Bunu ordumuzun aprel döyüşləri bir daha təsdiq etdi. Ordumuzun şəxsi heyəti yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. Dövlətimizin qayğısını, xalqımızın sevgisini görən ordumuz Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı düşmən işğalından azad etməyə hazırdır."

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov aprel döyüşləri zamanı Azərbaycan Ordusunun cəsarəti, qəhrəmanlığı haqqında danışdı. O dedi ki, bu döyüşlərdə qazanılmış qələbədə gənclərin yüksək vətənpərvərlik nümayiş etdirməsi dövlətimizin həyata keçirdiyi uğurlu gənclər siyasətinin bariz nümunəsidir.

Tədbirin bədii hissəsində Müdafiə Nazirliyi və Nəsimi rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə ərsəyə gəlmiş "Azərbaycan əsgəri" mahnısının təqdimatı keçirildi. Mahnının yaradıcı heyətinə hədiyyələr təqdim olundu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Qarşılıqlı fəaliyyət səmərə verir

Ordu quruculuğundakı nailiyyətlər və uğurlar göz qabağındadır. Ordumuzun gücünü artıran və hərbi qulluqçuların döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərdiyi diqqət və qayğıdır. Bu gün Azərbaycan əsgəri Vətəni şərəflə qoruyur. Vahid komandanlıqdan idarə edilən və müasir hərbi texnika ilə təchiz olunan Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirmək iqtidarındadır.

Ordumuzun daha da möhkəmləndirilməsi üçün, şübhəsiz ki, hərbi qulluqçuların layiqli həyat səviyyəsinin təmin edilməsi də zəruridir. Bu hədəfə gedən yolun bir istiqaməti isə hüquqdur, insan hüquq və azadlıqlarının qorunmasıdır. Çünki qanunların birmənalı tətbiqi, hər kəsin hüququnun tələb olunan səviyyədə təmin edilməsi və bütövlükdə sağlam mühitin bərqərar olunması ölkənin əsas dayağı olan ordunun döyüş gücünü daha da artırır. Hərbi qulluqçuların və ailə üzvlərinin, həmçinin orduda çalışan mülki şəxslərin hüquqlarının qorunması, hüquqi maarifləndirmə işinin təşkili və normativ hüquqi aktların tətbiqi üçün Müdafiə nazirinin "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi sahəsində komandir-rəis heyətinin işinin təkmilləşdirilməsi haqqında" əmrinə əsasən, hərbi qulluqçularla hərbi prokurorluq orqanları əməkdaşlarının görüşlərinin təşkil edilməsi çox dəyərli bir ənənədir. Hüquqi biliklərin, hüquq mədəniyyətinin yüksəldilməsi, qanun və digər normativ aktların şərhi və təbliği belə görüşlərin keçirilməsini olduqca əhəmiyyətli edir.

Respublika Hərbi Prokurorluğu tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuş profilaktik tədbirlər planına əsasən hərbi hissələrdə də görüşlər təşkil edilib. Burada məqsəd orduda xidmət edən hərbi qulluqçulara Konstitusiyamızda təsbit edilmiş "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" öhdəliyinin, eləcə də nizamnamələrdə hərbi qulluqçuların vəzifə borclarının yerinə yetirilməsi ilə bağlı müddəaların hüquqi aspektlərinin şərh edilməsidir. Azərbaycan Respublikasının Müdafiə naziri tərəfindən imzalanmış bir neçə sənəd üzrə, o cümlədən "Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə proqramın" tələblərinin yerinə yetirilməsi ilə qanunçuluğun keşiyində dayanan dövlət orqanları ilə birgə tədbirlər planlı şəkildə həyata keçirilməkdədir. Onu da deyək ki, bu tədbirlər sırf qanunçuluğa nəzarət xarakteri daşımır, həm də bir ünsiyyət, əlaqə görüşüdür.

2018-ci ilin birgə tədbirlər planına əsasən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi və Respublika Hərbi Prokurorluğunun kollektivi Novruz bayramı ilə əlaqədar bir çox hərbi hissələrdə mədəni-kütləvi tədbirlər keçirdi. Respublika Hərbi Prokurorluğunun nümayəndəsi, ədliyyə polkovniki Oktay Ağayev təmsil olunduğu qurumun rəhbərliyi adından şəxsi heyəti bayram münasibətilə təbrik etdi, xidmətdə fərqlənənlərə hədiyyələr verdi. Daim belə görüşlərin keçiriləcəyini vurğulayan ədliyyə polkovniki Natiq Həsənov da öz xoş arzularını şəxsi heyətə çatdırdı. İl ərzində bir neçə görüşün planlaşdırıldığını bildirən ədliyyə polkovnik-leytenantı Elnur Kərimov möhkəm intizamın qorunmasının vacib olduğunu, hamının bu işə töhfə verməli olduğunu bildirdi.

Görüşün sonunda təşkil edilən konsert proqramı əsgərlərə xoş ovqat bəxş etdi.

**Polkovnik-leytenant**
**Zakir HÜSEYNOV,**
**"N" hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

# Aprel döyüşləri: Böyük Qələbənin başlanğıcı

*Azərbaycanın müasir tarixində parlaq iz buraxan 2016-cı ilin aprel döyüşlərindən bizi iki illik zaman məsafəsi ayırır. Xalqımıza uzunmüddətli atəşkəs dövründə ilk dəfə qələbənin sevincini yaşadan bu döyüşlər istər ölkə, istərsə də dünya ictimaiyyətində geniş təəssürat yaratdı və nüfuzlu media qurumları bu hadisələri geniş təbliğ etdi. Savaşın baş verdiyi bölgədən hazırlanan bu yazıda isə həmin döyüşlərin birbaşa iştirakçısı olan hərbi qulluqçularımızın düşüncələrini, xatirələrini qələmə almışıq. Onların bir qismini oxuculara təqdim edirik.*



**Mayor Rəşad İSRAFİLOV:**

Əvvələ minnətdaram ki, aprel hadisələrinin ildönümü ərəfəsində bizi dinləyir, fikirlərimizi qələmə alırsınız. Mən 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra ön xətdə zabit kimi xidmətə başladım və bu günə kimi ən çətin, məsuliyyətli döyüş tapşırıqlarını yerinə yetirməklə özümü Vətənimin əsl övladı sayıram. Cəbhə bölgəsində xidmət edərək ömrümün ən mənalı, dəyərli dövrünü yaşayıram. Əslində, ömür Vətən üçün yaşanmalıdır, məhz belə bir ömrün sahibi olmaqdan qürurluyam.

Aprel döyüşləriylə bağlı xatirələrim dil açanda qeyri-ixtiyari yenidən o odlu-alovlu günlərə qayıdıram. Döyüşün ilk dəfə necə baş verdiyi bir kino lenti kimi gözlərim önündədir. Daim vətənpərvərliyinə, bacarığına, hərbi səriştəsinə qibtə etdiyim yüksək rütbəli zabitlərdən biri bizə düşmənin növbəti güclü təxribatının əks-hücumla dəf olunacağını bildirdi və onun rəhbərliyi ilə döyüşə atıldıq. Aprelin 1-dən 2-nə keçən gecə idi, bir göz qırpımında savaşa girdik. Hamıda qələbə əzmi vardı, hər kəs bir inamla vuruşurdu: qələbə bizim olacaq. Doğru deyiblər, inam böyük qüvvədir, məhz gücümüzə güvənib düşmən üzərinə şığıdıq və qısa bir vaxtda ən məsuliyyətli döyüş tapşırığını yerinə yetirdik.

Müharibənin öz qanunları var, döyüşlər itkisiz olmur. Bir neçə cəsur silahdaşımı, zabit-gizir yoldaşımı itirdim. Xocalıdan olan əkiz qardaşlar - Sarvan və Namiq Mehrəliyevlər də bizim dəstədə döyüşürdülər. Əsl vətənpərvərlər idi, düşmənə olan güclü intiqam hissi onları da sıralarımıza gətirmişdi. Qəflətən düşmən tərəfindən açılan snayper atəşi Sarvanın həyatına son qoydu. Namiqi güclə saxlayırdıq, irəli atılırdı. "Qardaşımın qanını yerdə qoymayacam", - deyirdi. Onu ovundurmaq mümkün deyildi. Dedim ki, Namiq, şəhid olan əsgərimiz tək sənin yox, hamımızın qardaşıdı. Mütləq onun qisası alınacaq.

Sevimli əsgərim qollarım üstə gözlərini yumanda xəyalım məni 2012-ci ildəki döyüşlərimizin birinə qaytarmışdı. Həmin döyüşdə baş leytenant Fərid Əhmədovu itirmişdim, ən yaxın dostlarımdan biriydi. Amma təsəllim ondadır ki, bu gün 6 yaşlı oğlum Fərid mənə təsəllidir. Həmin hadisədən bir neçə ay sonra oğul övladım dünyaya gəldi və ona dostumun adını qoydum.

Hər gün, hər saat aprel döyüşlərinin yenidən təkrar olunacağı günü gözləyirəm. Son qarış torpağımızı işğaldan azad etməyincə rahat dayanan deyilik. Qələbə mütləq bizim olacaq, çünki biz haqq uğrunda, ata-baba torpaqlarımız uğrunda döyüşürük, başqa heç kimsənin torpağında gözümüz yoxdur.

**Mayor Faiq QASIMOV:**

Müharibənin nə demək olduğunu ata-baba ocaqlarımızı itirəndə, 1992-ci ildə Qubadlıdan didərgin düşəndə hiss etmişəm. Onda qardaşım "Həsən Qorxmaz" təxəllüslü Həsənqulu Qasımov yeni yaranan ordumuzun ilk zabitlərindən idi. Onu qızğın döyüşlərin birində itirdik. Həmin gün and içdim ki, torpaqlarımız yağıla-



rın tapdağından azad edilməyənə kimi hərbi formanı əynimdən çıxarmayacam. Bir müddət sonra komandanlığın vəsatəti ilə zabit hazırlığı kursuna göndərildim və taleyim ömürlük orduya bağlandı.

Aprel döyüşləri başlananda, inanın ki, mən uşaq kimi sevinirdim. Deyirdim ki, indi meydan mənimdir, şəhid qardaşımın ruhu şad olsun deyə son nəfəsiməcən döyüşəcəm. Döyüşdən öncə generalımız Mayis Bərxudarov bizi ətrafına toplayıb dedi ki, 25 ildir gözlədiyimiz an gəlib çatıb. Əvvəl tanklar, ardınca biz döyüşə girdik. Hamı bir nəfər kimi yüksək döyüş əzmindəydi. Düşmən heç nə gözləmirmiş kimi çaş-baş qaldı, "dəmir atlarımız"ın nəriltisindən vahiməyə düşdü, nə qədər silah-sursatını atıb qaçdı. Onların mövqelərini tutub möhkəmləndik, səngərləri, yataq yerləri bərbad idi. Bəs harada qalmışdı keçilməz Ohanyan səddi?

O günlər daim xatirəmdə yaşayacaq, xüsusən də şəhid zabitlərimiz Elnur kimi, Rasim kimi oğulları, Səyyad Quliyev kimi şəhid əsgərlərimizi xatırlayanda qəhər mənə güc gəlir. Hər biri igid, cəsur, vətənpərvər döyüşçü idi. Onlar qorxu nə olduğunu bilmədən döyüşürdülər. Elə bil gözlərini qan örtmüşdü. Axı, Elnur Əliyev neçə illər idi doğulduğu elobasına həsrət qalmışdı. Həmişə deyərdi ki, görəsən, doğulduğum kəndimizə dönmək mənə nəsib olacaqmı? Lələtəpə zirvəsindən onların kəndinə gedən yol görünür. Rahat uyu, qardaşım, sənin qisasın yerdə qalmayacaq, yenə də döyüşlər başlanacaq, həsrət qaldığın o yurd yerlərini işğaldan azad edəcəyik, sənin də, şəhid qardaşımın Qubadlının göylərində dolaşan ruhu da şad olacaq. Mütləq o gün gəlib çatacaq. Doğma ata ocağımız düşməndən azad olunmayınca, silahımı yerə qoyan deyiləm. Qohum-qardaşıma da söz vermişəm ki, Qubadlım ruhumun Məkkəsi, qibləsidir.

Bu gün ordumuz daha da güdrətlənib. Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı ilə sıx əhatə olunan ordumuz ən müasir silah-sursatla təmin olunub. Bu gün Azərbaycanın elə bir ucqar bölgəsi tapılmaz ki, orada müasir hərbi şəhərciklər, yeni tipli məişət şəraiti olmasın. Dövlətimizin qayğısı, Ali Baş Komandanımızın, Müdafiə nazirimizin əsgərə, orduya olan yüksək qayğısı bizə daim döyüş ruhu aşılayır. 2016-cı ilin aprelində olduğu kimi, biz yenə də düşmən üzərində zəfər qazanacağıq.

**"Azərbaycan Bayrağı" ordenli gizir Tahir MİSİRXANOV:**

Bəzən adam özü-özünə sual verir: Vətənim üçün nə etmişəm? Bu mənada hərbə talelərini bağlayanlar xoşbəxtdirlər, çünki bizim hər birimiz Vətən adlı ömür yaşayırıq, elə seçdiyimiz peşənin də əsl mahiyyəti Vətəni qorumaqdır.

Müddətli hərbi xidmətim ön xətdə keçib və məhz həmin dövrdə hərbi peşəyə sonsuz marağım yaranıb. Taleyimi or-




duya həsr etdim, məşğələlərdə, təlimlərdə döyüşçü kimi formalaşdım və bir gün də eşitdim ki, bizə döyüşə atılmaq haqqında əmr verilib. Onda 2016-cı ilin ilk aprel gecəsi idi. Hamımız bir nəfər kimi silahlanıb mühüm əhəmiyyətli yüksəkliyi düşməndən azad etmək üçün savaşa girdik. Ermənilər nəyin hesabına olursa-olsun, öz mövqelərindən geri çəkilmək istəmirdilər. Amma ordumuzun bir gecədə qətiyyətli əks-hücumu onları vahiməyə saldı və düşmənlərimiz silah-sursatlarını döyüş meydanında atıb geri çəkildilər. Hər şey elə bil bircə anın içərisində baş verdi. Top-mərmi səsindən çaş-baş qalan düşmən əsgərləri hara gəldi atəş açırdılar.

Lələtəpə yüksəkliyini azad edəndə bəlkə də həyatımın ən gözəl, ən qiymətli bir anını yaşadım. Axı qələbə bizim idi, indi bu vacib mövqelərə bizimkilər nəzarət edir. Dayandığım zirvədən bircə an arxaya, yaxınlıqdakı kəndlərimizə baxanda qürurdan gözlərim doldu. Gör nə qədər adamı təhlükədən xilas etmişdik?!

Aprel döyüşləri barədə düşünəndə mən də neçə şəhid silahdaşımı xatırlayıram. Onlar Vətən naminə şirin canlarını əsirgəməkdən çəkinmədilər, torpaq uğrunda şəhid oldular və insanlığın ən uca, ali zirvəsinə yüksəldilər. Doğru deyiblər ki, torpaq onda Vətəndir ki, onun uğrunda can əsirgəməyən oğulları var. Biz Azərbaycanımızın ərazi bütövlüyünü təmin etmək üçün hər an döyüşə atılmağa hazırıq. Məhz aprel savaşında olduğu kimi, düşmənə qətiyyətimizi sübut edib torpaqlarımızı azad edəcəyik. Bu gün bütün silahdaşlarım da Ali Baş Komandanın "İrəli!" əmrini səbirsizliklə gözləyirlər. Tezliklə işğaldan azad edəcəyimiz ərazilərimizdə üçrəngli bayrağımız qürurla ucalanda şəhid dostlarımızın ruhu şad olacaq. Onda Elnurun da, Xocalıdan olan şəhid əsgərimiz Sarvanın da, şəhid tabor komandiri Rasim Məmmədovun da, tanıdığım və tanımadığım neçə-neçə şəhidimizin ruhu göylərə ucalacaq. Mən də həmin günün - Böyük Qələbə günümüzün həsrəti ilə yaşayıram.

**Kiçik gizir Zaur XANCANOV:**

Aprel hadisələrində qazanılan qələbədən söz düşəndə iftixardan qəlbim dağa dönür, çünki bu zəfərdə mənim də xidmətim olub. Həmin vaxt müqavilə əsasında xidmət edən əsgər idim, amma qələbəmizdən sonra komandanlığın təşəbbüsü ilə gizir rütbəsinə təqdim olundum. Hərdən dostlarımla aprel döyüşlərindən danışanda zarafatımdan da qalmıram. Deyirəm ki, bu qələbəmiz mənə rütbə qazandırıb. Ümumiyyətlə, dövlətimiz, Müdafiə Nazirliyinin rəhbərliyi, komandanlıq sağ olsunlar, hər kəsin xidməti yetərincə qiymətləndirildi. Amma düşünürəm ki, Lələtəpə zirvəsi azad olunandan sonra 24 illik həsrətə son qoyub doğma ocaqlarına qayıdan Cocuq Mərcanlı camaatının alqışı, duası ən böyük mükafatımızdır. Prezidentimiz bu kəndin abadlaşdırılması haqqında sərəncam imzalayandan sonra kənd müasir görkəminə qayıdıb. Yüzlərlə qaçqın ailəsi doğma yurduna yığışıb, insanlar əmin-arxayın təsərrüfatlarını bərpa edirlər. Bir dəfə televizorda bu kəndi göstərəndə Şuşa məscidinin bənzərini orada gördüm. Məncə, bu tikilinin rəmzi mənası çox böyük-



dür. Qoy düşmənlərimiz bilsinlər ki, biz yenə də savaşa qalxıb başqa əzəli torpaqlarımızı da azad edəcəyik.

Bu günlər aprel zəfərimizin ikinci ildönümünü qeyd edirik, ürəyim sözlə doludur. Hərbi bölmənin kollektivi yenə də şəhid döyüşçülərimizin xatirəsini yad edəcək, onların uyuduğu məzarlar ziyarət olunacaq. Lələtəpə yaxınlığında aprel şəhidlərinin xatirə kompleksinin yaradılması ürəyimizdən xəbər verdi, indi bu abidə hərbi xidmətə gələn gənclərin müqəddəs ziyarətgahı, and yeridir. Onlar gənc əsgərlərin hazırlığı mərhələsini bitirdikdən sonra döyüş növbətçiliyinə burada and içərək yola düşürlər. Bəli, aprel zəfəri müasir Azərbaycan gəncliyinə ən dəyərli örnək, bir qəhrəmanlıq nümunəsidir. İllər ötüb keçəcək, amma qələbə üçün canlarını qurban verən igidlər unudulmayacaq, onlar zaman-zaman yaddaşlarda xatırlanacaq. Bir daha şəhid dostlarımın ruhu qarşısında baş əyirəm, and içirəm ki, onların qisası yerdə qalmayacaq.

**(Ardı 5-ci səhifədə)**

# Aprel döyüşləri: Böyük Qələbənin başlanğıcı



(Əvvəli 4-cü səhifədə)

**Kapitan Şamil ƏLİYEV:**

Zabit və gizirlərimizin peşəkarlığı Azərbaycan Ordusunun gücünü təsdiqləyən əsas amillərdəndir. Ordu sıralarına qədəm qoyan bir gəncin müqəddəs və şərəfli peşənin vərdişlərinə yiyələnməsində, müasir hərbi texnikaların sirlərinə yaxından bələd olmasında, vətənpərvər bir əsgər kimi formalaşmasında zabit və gizirlərin rolu böyükdür. Onlar Vətən sevgisinin, Vətənə bağlılığın, Vətən müqəddəsliyinin nə olduğunu əsgərlərə xidmətləri boyunca aşılayırlar. Azərbaycan əsgəri bu sevgi ilə xidmət edir.

Hərbi sahədə kökündən dəyişən yeniləşmənin, ardıcıl və yorulmaz fədakarlıqların yolu ilə gedən zabitlərimizdən biri kimi mən də hərbi xidməti təkcə vəzifə deyil, həm də amalım hesab edirəm.

Azərbaycan xalqının güvənc yeri Azərbaycan Ordusudur. Zabit və əsgərlərə dəyanət verən, əminlik bəxş edən o inamdır. Ordumuzu aprel zəfərinə aparan həm hərbi qulluqçularımızın yüksək döyüş və mənəvi hazırlığı, dövlətə, dövlətçiliyə sədaqəti, həm də bu inam oldu. Xoşbəxt hərbçilərdənəm ki, həmin qələbə anını yaşayanların sırasında oldum. Üçrəngli Azərbaycan bayrağının Lələtəpə yüksəkliyində dalğalanmasının qürurunu yaşadım. Lələtəpədə yaşadığım duyğular heç bir zaman yaddaşımdan silinməyəcək.

Aprelin 1-dən 2-nə keçən gecə ermənilər artilleriya vasitəsilə kəndləri atəşə tutdular.

Düşmən geniş təxribatlar törədəndə hərbi hissələrimiz əkshəmlə əmri aldı.

Hər bir əsgərdə, gizirdə, zabitdə çox yüksək döyüş ruhu var idi. Hər kəs inamla, ürəklə savaşırdı. Düşmənə sübut etdik ki, onlar bizim kimi döyüşə bilməzlər. Çünki biz torpaqlarımızın azad edilməsi üçün vuruşurduq. Əsgərlərimiz cəsarətlə və yüksək əhval-ruhiyyədə döyüşürdülər.

Biz aprel döyüşlərində sübut etdik ki, lazımi qədər texnikamız var. Lakin biz onların hamısından, daha uzaq mənzilli silahlardan istifadə etmədik. İstifadə etdiyimiz silahların bir qismi hələ onları vahiməyə salmışdı, düşmənin yanına düşən hər bir mərmi onların əsgər və zabitlərini qorxuya salırdı. Silah-sursatlarını atıb qaçırdılar ki, canlarını qurtarsınlar.

Ali Baş Komandanımızın vurğuladığı kimi, bu gün Azərbaycan Ordusu o qədər güclüdür ki, bu gün bizim o qədər güclü texnikamız, silah-sursatımız, müasir silahlarımız var ki, düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə, torpaqlarımızı işğaldan azad etməyə hər an hazırıq.

**Leytenant Emil MƏRDANOĞLU:**

2016-cı ilin aprel döyüşləri Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı və Azərbaycan Ordusunun döyüş əzmini sübut etdi. Həmin zəfər nəticəsində qəhrəman Azərbaycan əsgəri düşmənə layiqli cavab verməklə yanaşı, işğal altında olan mühüm əhəmiyyətli yüksəklikləri və yaşayış məntəqələrini azad etdi. Uzun illərin ayrılığından sonra düşmən tapdağında olan torpaqlarımızın bir qismi tarixi sahibinə qovuşdu.

Biz döyüşə böyük ruh yüksəkliyi ilə başladıq. İnanırdıq ki, hər şey yaxşı olacaq. Uzun müddət idi ki, düşmən yaşayış məntəqələrini, bir sıra obyektləri, eləcə də döyüş mövqelərimizi müxtəlif növ silahlardan atəşə tuturdu. Qarşı tərəf cavab atəşi ilə susdurulurdu. Aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri təxribat hazırladı. Biz



hər an belə hallara hazır idik və buna görə də onların təxribatı baş tutmadı. Ordumuz əkshəmlə ilə düşmən qüvvələrini susdurdu. Ermənilər bizim torpaqlarda qurduqları postlarını tərk edib qaçırdılar. Biz həmin mövqelərdə düşmən üzərinə gedərək canlı qüvvələrini məhv etdik. Torpaqlarımızda yeni postlarımızı qurduq və möhkəmləndik.

Döyüşlərin gedişi zamanı zabitlərimiz, gizirlərimiz, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımız və əsgərlərimiz yaralansalar da döyüşü davam etdirirdilər. O anlarda hamı Vətən üçün ölümün gözünə dik baxmağı bacardı. Biz çox yaxın zamanda öz torpaqlarımıza geri dönəcəyik və döyüşdə şəhid olmuş yoldaşlarımızın ruhu rahatlıq tapacaq.

Aprel döyüşləri yenilməz, şanlı Azərbaycan Ordusunun gücünü və qüvvəsini düşmənə bir daha göstərdi və sübut etdi ki, Azərbaycan xalqı, Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, heç vaxt işğalla barışmayacaq, nə yolla olursa-olsun, torpaqlarımızı düşmən tapdağından azad edəcəyik!

**Gizir Cavid HÜSEYNOV:**

Vətən sevgisi mənim üçün ən ülvi hissdir. Ürəyim hər zaman Vətənim üçün döyünür, Qarabağ nisgili ilə sızlayır. Torpaqlarımızın bütövlüyü uğrunda tökülən qanlar, verilən canlar Vətən sevgimi, Vətən bağlılığımı daha da artırır.

Bizim nəslimizdə də Vətən uğrunda canından, qanından keçənlər olub. Əmim Hüseynov Saleh İsi oğlu hərbi xidmətdə olarkən Qarabağ müharibəsi dövründə Ağdam uğrunda gedən döyüşlərdə şəhid olub. Hələ uşaq yaşlarımdan babam və nənəm əmimdən danışır, Qarabağ uğrunda gedən döyüşlərdə həlak olduğunu qəmgin səs tonu ilə dilə gətirirdilər. Lakin bunun adi ölüm olmadığını başa salırdılar. "Saleh əmin ölümün ən uca zirvəsi olan şəhidlik məqamına yüksəlib" - deyirdi nənəm. Şəhid ailəsi olmaqla hər zaman qürurlanardılar. Çünki üzərində yaşadıqları torpağın köksündə canlarından bir parçanın qanı vardı. Düşmənə nifrət edərdilər. Onları Saleh balasından düşmən gülləsi ayrı salmışdı.

Müasir dövrümüzdə azad, müstəqil və firavan yaşamağımızda əmim və onun kimi şəhid olmuş qəhrəmanlarımızın, döyüş meydanında düşmənə gözdağı olan qazilərimizin ömür yolu bizlərə əsl örnəkdir. Atam da mütəmadi olaraq Saleh əmimdən, onun döyüşçü yoldaşlarından danışır, Azərbaycanın igidlər məskəni, cəngavərlər oylağı olduğunu bildirirdi. Mən də bilirəm ki, ömür Vətən üçün yaşanılmalıdır, lazım gələrsə, canından da keçməlisən. Amma bizlərə candan keçmək tezdir. Qarabağımızı azad etmədən ölmək niyyətində deyiləm.

Müddətli həqiqi hərbi xidmətimi ön xətt hərbi hissələrindən birində başa vurduqdan sonra müxtəlif işlərlə məşğul oldum. Amma hər zaman hərbçi olaraq ordu sıralarına qatılmaq arzum vardı. Bir gün qərara aldım və gizir hazırlığı kursuna sənədlərimi təqdim etdim. Seçdiyim yoldan, tutduğum vəzifədən qürur duyuram. Tank komandiri olaraq məsuliyyətlə xidmət etməyi torpaqlarımızı düşmən tapdağından azad etməyə hazır olmaq üçün döyüş vərdişlərimi mükəmməl öyrənməyi qarşıma məqsəd qoymuşdum.



Aprel döyüşlərində öndə gedənlərdən biri də mənim komandiri olduğum tank idi. Düşmən üzərinə əks-hücum edərək onların döyüş texnikasını, zirehli maşınlarını məhv etməyə müvəffəq olduq. Müharibə anlayışı çoxlarına ağır gələ bilər, lakin təlimlər zamanı qazandığımız vərdişlər döyüş meydanında rahatlıqla qələbə qazanmağımıza gətirib çıxardı.

Aprelin ilk günlərindən hamı kimi Vətən torpağının müdafiəsi, eləcə də tarixi torpaqlarımızı geri qaytarmaq məqsədilə irəli atıldım. Bu gün ailəm, eləcə də mənim üçün qürurverici haldır ki, aprel döyüşlərindən sonra təşəkkür elan olunanlar sırasındayam. Eləcə də Novruz bayramı ərəfəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən fəxri fərmana layiq görülmüşəm. Bütün bunlar hər bir hərbi qulluqçunun xidmətində stimuldur. Mən və bütün xidmət yoldaşlarım hər birimiz Vətənimizə candan bağlıyıq.

* * *

Aprel döyüşləri nəticəsində mühüm əhəmiyyətə malik olan mövqelər ələ keçirildi. Şəhidlərimizlə yanaşı, yaralılarımız da oldu. Qürurla qeyd etməliyik ki, yaralılar sağlamlıqlarına qovuşub şəhidlərimizin qisasını almaq üçün öz xidmət yerlərinə geri döndülər.

Döyüşlər zamanı qəhrəmanlığı ilə seçilən və hərbi xidmətdə fərqlənməyə görə III dərəcəli medalla təltif olunan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu əsgər Taleh Səbuhi oğlu Hüseynovdur:

O, tank heyətinin tuşlayıcısıdır. Goranboy rayonunda sadə kəndli ailəsində dünyaya göz açıb. Məktəbi bitirdikdən sonra yaşıdları kimi hərbi xidmətə yollanır. 2012-2013-cü illərdə ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçir. Vətənpərvərliyi və nizam-intizamı ilə seçilir. Taleh xidmətini başa vursa da, daim Vətəninə, xalqına, millətinə sadiq olur. Sonda Vətən sevgisi onu yenidən ordu sıralarına qatılmağa vadar edir. Gizir hazırlığı kursuna qatılan gənc tank heyətinin tuşlayıcısı kimi təhsilini başa vurur. Ön xətt hərbi hissələrindən birində xidmətə başlayır. Aprelin ilk günlərindən döyüşlərə qatılır, öz bacarığı və şücaəti ilə seçilir. Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşur. Yoldaşlarına dayaq, düşmənə göz dağı olur. Döyüşlərin birində əl, üz və bel nahiyələrindən yanıq, sağ ayağından qəlpə yarası alır. Yaralı əsgər hospitala çatdırılır. Tez bir zamanda sağalan qəhrəman öz xidmət yerinə qayıdır.

- Aprel döyüşləri Azərbaycan Ordusunun gücünün, bizlərin Vətən sevgisinin göstəricisi idi. Hər birimizin illərcə gözlədiyimiz gün gəlmişdi. Ermənilər özləri atəşkəsi pozmuş, torpaqlarımıza basqın etmişdilər. Lakin bir anda qarşılarında bizləri görəndə təşviş içində geri çəkilməyə, qaçmağa başladılar. Biz irəlilədikcə düşmən geri çəkilir, torpaqlarımızı boşaldırdılar. Bunlar hər birimizin görmək istədiyi mənzərəydi. Düşmən Azərbaycan Ordusunun gücünü dadmış, torpaqlarımızın bir hissəsini boşaltmışdı. Bu gün də onlar o gecənin acısını çəkir, mühüm əhəmiyyətli yüksəklikləri əldən verdikləri üçün özlərinə yer tapa bilmirlər. Aprel döyüşləri ərəfəsində şəhid olan hərbçi



yoldaşlarımız oldu. Biz onların ruhunu şad etmək üçün torpaqlarımızı tam azad edəcəyik. Bunu etmək hər birimizin övladlıq borcudu. Bu gün döyüş texnikası ilə tam şəkildə komplektləşdirilmişik. Məişətimiz yüksək səviyyədədir. Azərbaycan Ordusunun nümayəndəsi olaraq Ali Baş Komandanıma güvənir və döyüş əmrini gözləyirəm. Vətən torpağının bir hissəsinin azad edilməsində yaralandım, lakin torpaqlarımızın tam azad edilməsi uğrunda canımdan keçməyə hazıram.

Vətənini canından üstün tutan, onun uğrunda varlığından keçən döyüşçülər olduğu halda ermənidə nəinki bir qarış torpaq, alınmamış qisas qalmayacaq.

**Səhifəni hazırladılar:**
**polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**kapitan**
**Məhəmməd ƏLİYEV,**
**baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

31 Mart Soyqırımı - 100

# "Quba qırğınları Bakı, Şamaxı qətliamlarının davamı idi"


Fərzəli Mirzəxanov

*1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər həyata keçirilir. Əlahiddə Ümumqoşun Ordu, müxtəlif qoşun növləri, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrində yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri ilə birgə anım tədbirləri keçirilir.*

*Erməni-daşnak qüvvələrinin 1918-ci il mart-aprel aylarında Quba şəhərində həyata keçirdiyi soyqırımı cinayətlərinin qurbanı olmuş insanların yaxın qohumları ilə görüşmək məqsədilə redaksiyamızın əməkdaşı oraya ezam olunaraq həmin insanlarla söhbət aparıb əzizlərindən eşitdikləri o faciə ilə bağlı acı xatirələrini qələmə alıb.*

## Qubalıların qan yaddaşı

Mart faciələrinin baş verdiyi günlərdən bizi 100 illik zaman kəsiyi ayırsa da, vaxtilə o hadisələrin canlı şahidi olmuş insanların dedikləri nəsildən-nəslə hələ də ötürülməkdədir. Təkcə 2007-ci ilin aprelində Quba şəhərində aşkarlanan soyqırımı məzarlığı 1918-ci ilin mart-aprel aylarında erməni millətçilərinin həyata keçirdikləri qətliamların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirən dərin faktlardır. 100 il bundan əvvəl Qubada baş verən qırğınlar haqqında qubalılar çox məlumatlıdırlar. O faciəli günlərin acı xatirələri yaddaşlardan hələ də silinməyib. Əksinə, getdikcə daha da dərindən öyrənilir, hər bir azərbaycanlı o dəhşətli faciələrdən xəbərdar olmağa çalışır.

## "Yaxın, uzaq tariximizi unutmamalıyıq"

Qubalıların söylədiyinə görə erməni-daşnak qüvvələrinə qarşı müdafiə və hücum mövqeyində dayanan Digah kəndinin igid, qorxmaz oğulları Dərin dərə (Hazırda Qanlı dərə adlanır) deyilən yerdə kəndə hücumun qarşısını bir neçə dəfə ala bilmişdilər.

Digah kənd orta məktəbinin direktoru Mansur Hacıyevin nə-


Mansur Hacıyev

nəsi, babası (atası o zaman 3 aylıq körpə olub) Qubada baş verən qətliamların şahidləri olublar. Mansur müəllim söylədi ki, 1918-ci ildə ermənilərin Quba qəzasında törətdikləri qətliamlar, talanlar barədə bizim kəndə də xəbər gəlib çatıbmış. Babam danışırdı ki, bizim kəndə də hücum olacağı hər dəqiqə gözlənilirdi. Ona görə də ağsaqqalların məsləhətilə əvvəlcədən qadınlar, qocalar, uşaqlar kənddən çıxarılmışdı. Onları kəndin yuxarı hissəsində olan meşəliyə yerləşdirmişdilər ki, ermənilər gəlib qırmasın. O zaman vəhşiləşmiş ermənilər kəndimizə od vurub yandırmışdılar. Yerli ermənilər onlara bələdçilik ediblərmiş. O cümlədən bizim evi də - ata-baba evimizi də yandırmışdılar. Kəndimizin cavanları qonşu kəndlərin cavanlarıyla birlikdə ermənilərin "Qanlı dərə" deyilən yerdə qarşısını kəsərək onlara müqavimət göstəriblər. Deyilənlərə görə bizim kənddən bir nəfər də olsa erməni sağ geri dönə bilməyib. Onlar bu yerlərin dağlarına, qayalarına bələd olmadıqlarına görə silahlarını atıb qaçmaq istəyəndə hamısını kəndin cavanları məhv edib.

Hər il martın 31-də məktəblilərlə birlikdə "Qanlı dərə"yə gəldiklərini deyən Mansur müəllim bildirdi ki, soyqırıma məruz qalan insanları yaddan çıxarmırıq. Bizim yerli əhali o zaman da erməniyə sübut etməyə çalışmışdı ki, bu torpaq doğma torpağımızdır, biz buradan heç bir yerə gedəsi deyilik. Ölsək də, torpaq uğrunda döyüşərək öləcəyik. Bütün bunlar gənc nəslə öyrədilir. Biz heç vaxt tariximizdə baş verən hadisələri unutmamalıyıq.Yaxın, uzaq tariximizdən uzaqlaşmamalıyıq".

Öyrənirəm ki, Mansur müəllimin nənəsi Qızyetər Məlikova 1984-cü ildə 88 yaşında dünyasını dəyişib. Hadisələr vaxtı cavan gəlin olub. Həmin günləri xatırlayanda göz yaşlarını saxlaya bilmirmiş. Qız-gəlinlərin başına gətirilən müsibətlərdən danışarmış. Evləri 1979-cu ildə sökülsə də, yanmış yerlərin izləri hələ də qalırmış. Ermənilər Quba qəzasında insanlara görünməmiş zülm ediblər. Hadisələr zamanı Digah kəndində tək yaşayan 100 yaşlı Ərzi nənəni qocaları, qız-gəlinləri köçürərkən yaddan çıxarırlar. Qayıdanda görürlər ki, ermənilər onu dəmirlərə keçirdərək vəhşicəsinə qətlə yetiriblər.

Mansur müəllim söhbətinin sonunda bildirdi ki, Böyük Vətən müharibəsində, Qarabağ cəbhəsində kəndimizin igid oğulları döyüşüblər. "Bu gün Azərbaycan Ordusunda da xidmət edən neçə zabitimiz, hərbçimiz var. Azərbaycan doğma Vətənimizdir. Bu gün də Ali Baş Komandanımız əmr verərsə, yüzlərlə, minlərlə gənc silaha sarılaraq torpaqlarımızın azadlığı və müdafiəsi uğrunda döyüşlərə getməyə hər an hazırdır".

Rafiq Mirzəyevin isə iki babası, babalarının qardaşları "Qanlı dərə"də döyüşlərin iştirakçısı, nənələri Qızmər və Əsmər Quba qırğınlarının canlı şahidləri olublar. Bibisi Şahsənəm qonşu Çartəpə kəndindən dəstə toplayıb ermənilərə qarşı döyüşüb. Atası Həsrət Mirzəyev hadisələr zamanı 10-12 yaşında imiş. Uzun illər kənddə məktəb direktoru işləyən Həsrət Mirzəyev 1985-ci ildə ilk dəfə canlı şahidi olduğu Quba soyqırımı, ermənilərin təcavüzü haqqında Azərbaycan televiziyasında bəzi məlumatlar, tutarlı informasiyalar vermişdi. O, 2005-ci ildə dünyasını dəyişib. Rafiq müəllim uzun illərin araşdırmasının nəticəsi olaraq Quba soyqırımı haqqında "Quba faciəsi və Qanlı dərə" adlı kitabını çapa hazırlayır.

Rafiq Mirzəyevin dediklərindən: "1918-ci ildə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri amansız soyqırımı hadisələrindən biri də Quba faciəsidir. Quba qırğınları Bakı, Şamaxı qətliamlarının davamı


Rafiq Mirzəyev

idi. 1918-ci ilin iyununda Qafqaz İslam Ordusunun Gəncədən başlayaraq Bakı uğrunda apardığı uğurlu döyüş əməliyyatlarından ermənilər tələsənaraq geriyə - şimala doğru qaçmağa başlayırlar. Gördüyünüz bu "Qanlı dərə" adlanan əlverişli bir mövqedə ermənilər yerli özünü müdafiə dəstələri tərəfindən mühasirəyə alınaraq məhv edilirlər. Babam danışardı ki, erməni silahlı dəstələrində topları idarə edənlər əsasən bolşeviklər idi. Mənim əsas arxivim o hadisələrin canlı şahidi olan insanlardır ki, hazırda onlar dünyasını dəyişiblər. Bu insanlara mən 65 il bir yerdə yaşamışam. Döyüş gedən səngərləri atam mənə göstərərdi. İndi də həmin səngərlər dağılmış vəziyyətdədir. Tarixi silmək, saxtalaşdırmaq mümkün deyil. Son 20 ildə Quba faciələri, Quba qətliamları, Quba soyqırımı haqqında çox yazılıb. Bir dəhşətli fakt barəsində də sizə məlumat verim. Qubanın faciəli günlərinin şahidi olan Həmdulla İsmayılov təsadüf nəticəsində sağ qalsa da, bir qolunu itirmişdi. O danışardı ki, qırğınlar zamanı bir gün ermənilər yol tapıb meşəyə tərəf qaçan camaatı mühasirəyə alırlar. Valideynlərin, uşaqların qollarını biri-birinə dairəvi şəkildə bağlayırlar. Ortada ocağa od vurub yandırırlar. Şərtlərini yenidən təkrar edən ermənilərə məhəl qoymayan insanlar biri-birini oda sarı çəkməyə başlayır. Bu zaman insanlar diri-diri yanır. Kənardan dəhşət doğuran bu mənzərəni görən erməni vəhşiləri mahnı oxuyub, şənlənibər. Bu faciədən təxminən biriki nəfər sağ çıxa bilir. Onlardan biri keçən əsrin 60-cı illərində Qubada vəfat edir. Oradan sağ çıxan bir-iki uşaq və bu dəhşətli mənzərəni meşədən görən dinc sakinlər o faciəli hadisə haqqında danışar, erməniləri lənətləyərdilər. Bu dünya tarixində görünməmiş qətliam idi".

Rafiq müəllimin Quba qırğınları ilə bağlı araşdırmasında təməsda olduğu bütün insanlar birbaşa həmin hadisələrin şahidi və müdafiə döyüşlərinin iştirakçısı olublar. O deyir ki, təkcə Digah kəndində yüzə yaxın qohum-əqrəba, el-oba adamı var idi ki, onlar müdafiə döyüşlərində iştirak etmişdilər. 1850-ci ildə anadan olan Şeyx Şamil hərəkatının iştirakçısı, vaxtilə Hacı Muradın dəstəsində döyüşən Ölçüxan Rüstəmov ermənilərə qarşı müdafiə döyüşlərinin ən fəal təşkilatçılarından biri olub. Alpan, Sisay, Digah kəndlərində Quba qırğınlarının təkrar olunmaması üçün ciddi tədbirlər görülürdü. Alpan kəndindən Zaman dayı, Buxsay kişi möhkəm yaddaşa malik fenomen insanlar idilər. Quba faciələrinin əvvəlindən sonunadək canlı şahidləri olmuşdular. Baş verən hadisələri, qaniçən, insan qatilləri olan ermənilərin Qubada yaşayan müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər barədə anbaan bizə nəql edərdilər. 300-dən artıq şahidlə görüşüb söhbət aparmışam.

Qubanın yaşlı nümayəndələri ilə söhbətdən məlum olur ki, təsadüf nəticəsində aşkara çıxarılmış məzarlıq bəlkə də Qubada törədilmiş qətliamların yarısından da azıdır. Bu qətliamlar şəhərin aşağı məhəllələrində aparılıb. 15 gün yuxarı məhəlləni talan edib camaatı qırdıqdan sonra gözlərini qan örtmüş ermənilər aşağı məhəllələrə keçiblər. Hələ Sovet dönəmində Quba Konserv Zavodu tikilərkən bundan da çox böyük ərazini əhatə edən məzarlıq aşkarlansa da, dövrün qanunlarına uyğun olaraq gizlin saxlanılması qərara alınmışdı.

## "Qanlı dərə" əfsanəsi

Fərzəli Mirzəxanovun əmiləri, dayısı İsabala, nənəsi Saat Əhmədova da Quba qırğınlarının şahidi idilər. Qonşu kənddə gəlin olan Saat nənənin hadisələr zamanı 18 yaşı olub. 1918-ci il mart soyqırımlarının sonuncu canlı şahidi olan bu adam 2013-cü ildə rəhmətə gedib. O ermənilərin Qubada törətdiyi vəhşiliklərdən, qız-gəlinlərin necə işgəncələrlə qətlə yetirilməsindən danışardı.

Fərzəli Mirzəxanovun dediklərindən: "Digah kənd camaatının "Qanlı dərə" ilə bağlı böyük təəssüratları var. Azğınlaşmış ermənilərlə yerli dəstələr "Qanlı dərə"də qarşılaşır. Saat nənəm deyərdi ki, bu dərə qıpqırmızı qana boyanmışdı. O zaman kəndimizdə 84 ev olub. Ermənilər bütün evləri talan edib yandırıblar. Kəndin qədim məscidini də dağıdıblar. Babam Güləli Fərzəlioğlu da "Qanlı dərə" döyüşlərində iştirak edib."

Quba sakini Eldar Qurbanovun dediklərindən: "Atam Rzabəy Mirzəbəy oğlu 1901-ci ildə anadan olub. O danışardı ki, Quba hadisələrində müdafiə döyüşləri zamanı ermənilərin atəş nöqtələrini susdurmaq tapşırığı alır. O, dayısı Həbiblə birlikdə verilən tapşırığı uğurla yerinə yetirir. Onlar ermənilərin atəş nöqtələrini susdurub toplarını da qənimət kimi götürürlər. Demək olar ki, ermənilərin güclü top hücumlarının qarşısı bununla da alınır. Qırğınlar vaxtı atamın babası Cabbar, anamın qardaşı Hətəm ermənilər tərəfindən öldürülüb. Atam Böyük Vətən müharibəsində də artilleriya bölüyünün komandiri olub."

## Amazaspın xəyalları puç oldu

... Qubaya doğru hərəkət edərkən yolu üstündə bütün müsəlman kəndlərini talan edən, dağıdan, yandıran, qaçmağa macal tapmayan qocaları, qadınları və uşaqları vəhşicəsinə qıran Amazasp Qubada məscidin qarşısında əhalini hədələyərkən demişdi: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni xalqının qəhrəmanıyam və onun mənafelərinin müdafiəçisiyəm. Qisasçı dəstəmlə burada qayda-qanun yaratmağa göndərilmişəm... Mənə əmr edilmişdir ki, dənizdən Şahdağa kimi bütün müsəlmanları məhv edim, onların yaşayış yerlərini Şirvanda (Şamaxıda - H.L) olduğu kimi tamamilə dağıdıb, torpaqla bərabərləşdirim..."

Şahdağa kimi bütün müsəlmanları qırmaq istəyən daşnak başçısının xam xəyalları baş tutmadı. Yerli əhalinin mütəşəkkil müqavimətinə rast gələn Amazasp yenə istəyinə nail ola bilmədi. Qubada dəhşətli soyqırımı törətmiş qaniçən cəllad 1918-ci il mayın 18-də "Qanlı dərə" döyüşlərindən güclə qaçıb canını qurtara bildi.

"Qanlı dərə" döyüşlərində qazanılan uğurumuz böyük qələbə idi. Təsadüfi deyil ki, ulu öndərimiz Heydər Əliyev 1998-ci il oktyabrın 3-də Qusar rayonunda seçiciləri ilə görüşündə belə demişdi: "Qanlı dərə"də 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb onları darmadağın etmişlər."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda ümumtəhsil məktəblərinin hərbi rəhbərlərinin bilik və peşəkarlıqları artırılır

*Muxtar respublikada "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən ümumtəhsil məktəblərinin hərbi rəhbərlərinin növbəti təlim toplantısı olub.*



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçilən dərslərdə diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tam orta məktəblərdə hərbi kabinələrin yüksək səviyyədə hazırlanması, yaradılan hərbi vətənpərvərlik guşələri hərbi rəhbərlərin işini xeyli asanlaşdırıb. Buna görə də hərbi rəhbərlər şagirdlərdə hərb sənətinə maraq yaratmalı, gənclər həm hərbi idman oyunlarına, həm də hərbi xidmətə yüksək səviyyədə hazırlamalıdırlar. Hərbi rəhbərlər dərs keçən zaman xalqımızın şanlı hərb ənənələrini şagirdlərin diqqətinə çatdırmalı, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda, milli dövlətçiliyimizin möhkəmləndirilməsində öz şücaətləri ilə seçilən, Vətən yolunda canını fəda edən qəhrəmanlarımız haqqında məktəbliləri məlumatlandırmalıdırlar.

Dərslərdə o da diqqətə çatdırılıb ki, şagirdlərə baş verə biləcək fövqəladə hallarda mülki müdafiənin təşkili formaları, mürəkkəb vəziyyətlərdə qətiyyətli davranmaq bacarıqları aşılanmalıdır.

Toplantı çərçivəsində hərbi vətənpərvərlik mövzusunda film və videoçarxlar nümayiş olunub. Təlim toplantısında kütləvi qırğın silahlarından mühafizə vasitələri və onlardan istifadə qaydaları əyani olaraq göstərilib. Fiziki hazırlıq dərsləri zamanı silahlı, silahsız və ikilikdə çalışmalar kompleksi, eləcə də sürət və güc çalışmaları yerinə yetirilib. Təlim mərkəzində hərbi rəhbərlərə müxtəlif atıcı silahların təyinatı, taktiki-texniki xüsusiyyətləri haqqında məlumat verilib. Həmçinin ilk tibbi yardımın göstərilməsi və yaralıların döyüş sahəsindən çıxarılması qaydaları da diqqətə çatdırılıb. Hərbi rəhbərlər praktiki atışları icra edib, əl qumbaralarından atış çalışmalarını yerinə yetiriblər.

Üç günlük təlim-toplantı yekun tədbiri ilə başa çatıb. Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Məmməd Qəribov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Səxavət Salmanov çıxış edərək bildiriblər ki, hərbi rəhbərlər davranışları, hərbi geyimə münasibətləri ilə şagirdlərdə ordumuz haqqında ilkin təəssüratlar yaradırlar. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və tam tədris bazası ilə təmin edilmiş ibtidai hərbi hazırlıq yeşikləri təqdim edilib.

Çıxışlar zamanı təlim-toplantılarının əhəmiyyəti qeyd edilib, hərbi rəhbərlərin bilik, bacarıq və peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağı bildirilib. Həmçinin vurğulanıb ki, bu gün tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilir. Ona görə də hər il yüzlərlə gənc Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

Sonda bir qrup hərbi rəhbərə növbəti hərbi rütbələr təqdim olunub.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Mart qırğınları xalqımızın qan yaddaşıdır

*Ermənilər XX əsrdə Azərbaycan xalqına qarşı dəfələrlə soyqırımlar həyata keçirmişlər. Təbii ki, onların məqsədi torpaqlarımıza, zəngin nemətlərimizə sahiblənmək olub. 1918-ci il 31 mart soyqırımı, 1992-ci il 26 fevral Xocalı faciəsi insanlığa sığmayan hadisələrdir.*

31 Mart Azərbaycanlıların Soyqırımı tarixindən 100 il keçir. Bu soyqırımları zamanı uşaqlara, qocalara, qadınlara qarşı ermənilər tarixdə görünməmiş vəhşiliklər törətmişlər. 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Qarabağda və Azərbaycanımızın digər bölgələrində erməni daşnaklarının törətdiyi qırğınlar barədə o dövrün mətbuatında da geniş yazılar dərc olunub.

Bildiyimiz kimi, 31 mart soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş qəddar təxribatlardan biridir. Həmin gün təkcə insanlar qətlə yetirilmədi, həm də xalqımızın sərvətləri, maddi-mədəniyyət abidələri də yerlə-yeksan edilib.

Bu günə qədər insanların söylədiyi dəhşətli faktlar barədə çoxlu sayda əsərlər, kitablar yazılıb. O faktlardan birini söyləmək istəyirəm. Ermənilərin hücumlarından qorunmaq üçün şəhər xəstəxanasına, məscidlərə sığınan minlərlə insanın yandırılması faktı onların vəhşiliyinin bariz nümunəsidir.

80 il sonra bu hadisələrə düzgün qiymət ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilib. 26 mart 1998-ci il tarixində "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalandı. Məhz həmin fərmana görə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi tarixə yazıldı.

Göründüyü kimi, ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklər sonsuzdur. Təqvim üzərinə təqvim gəlsə də, yeni-yeni nəsillər dünyaya göz açsa da, belə dəhşətlər xalqımızın yaddaşından silinməyəcəkdir.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun I kurs tələbəsi**

# Ermənistan ordusunda xidmətdən razı qalan bir gənc tapılmadı

## "Brevis" şirkətinin keçirdiyi sosioloji sorğunun nəticələrinin bir qismi erməni xalqını dəhşətə gətirdi

Bir müddət əvvəl Ermənistanda "ordu-millət" adı altında başlayan fırıldağın tərkib hissəsi olan "Ditaket" (müşahidə məntəqəsi) proqramının tətbiqinə start verilib. Proqrama əsasən erməni ordusunda olan çatışmazlıqların öyrənilməsi, araşdırılması və aradan qaldırılması məqsədilə "Brevis" şirkəti rəy sorğusu keçirib.

Ermənistanın Müdafiə naziri Viqen Sarkisyanın rəhbərliyi ilə ordudan tərxis olunmuşlarla keçirilən görüşdən sonra gənclərə sualcavab aparılıb. Nəticəyə əsasən respondentlər arasında əsasən ali təhsillilər, rifah halı və sosial şəraiti aşağı olan ailələrdən olan gənclər hərbi xidmətə neqativ münasibət bildirib.

Sorğuda iştirak edənlərin 40 faizi xidmətə getməkdənsə təhsilini davam etdirməyə üstünlük verdiklərini deyiblər. Tərxis olunanların 20 faizə yaxını yeməyin miqdarından və keyfiyyətindən, 40 faizdən çoxu isə hərbi əmlakın keyfiyyətsizliyindən narazı olduqlarını bildiriblər.

Xidmətini başa vuranların əksəriyyəti komandir heyətinin davranışı, məzuniyyətlərin bölüşdürülməsində ədalətsizlik, nizamnamədən kənar münasibətlər, rüşvətxorluq, hərbi polisin fəaliyyəti və tibb xidmətinin bərbad təşkilindən narazılıq ediblər.

İmkanı olan hər bir Ermənistan vətəndaşı müxtəlif bəhanələrlə hərbi xidmətdən yayınmağa çalışır. Belə gənclərin sayının 70 faiz olduğu bildirilir. Statistik məlumatlara əsasən, 2016-cı ildə 209.000 nəfər və 2017-ci ildə isə 230.000 nəfər Ermənistan vətəndaşı təkcə Rusiya Federasiyasına köçmüşdür. Hərbi xidmətə getmək istəməyənlərin içində Yerevan və Lori sakinləri daha çoxdur.

Sosioloji sorğunun nəticələri ictimailəşdirildikdən sonra ordudakı vəziyyətlə qismən tanış olan erməni xalqı dəhşətə gəlib. Ordudakı vəziyyətdən narahat olan əsgər valideynləri təlaş içindədir. Sorğuda iştirak edənlər arasında Ermənistan ordusundakı hansısa xidmət sahəsindən razı qalan gənc tapılmamışdır.

Onu da qeyd edək ki, görüşə dəvət edilərək sorğuda iştirak edən gənclər xüsusi olaraq seçilmişdir və Ermənistan Müdafiə Nazirliyi maraqlı tərəf olaraq nəticələrin yalnız bir qisminin dərc edilməsinə icazə vermişdir. İşğalçı ölkənin ordusunda vəziyyətin nə dərəcədə acınacaqlı olduğunu təsəvvür etmək çətin deyil.

**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə və Rusiya prezidentləri arasında telefon danışığı olub



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Türkiyə dövlətinin başçısı rusiyalı həmkarına Kemerovo şəhərində baş vermiş dəhşətli yanğında insan tələfatına görə başsağlığı verib.

Telefon danışığı zamanı tərəflər ikitərəfli və regional məsələləri müzakirə ediblər.

Qərara alınıb ki, aprelin 4-də Ankarada Suriya məsələsi ilə bağlı Türkiyə, Rusiya və İran prezidentlərinin üçtərəfli görüşü keçirilsin. Bundan başqa, Vladimir Putinin Ankaraya səfəri çərçivəsində Türkiyə-Rusiya münasibətləri də ikitərəfli formatda müzakirə olunacaq.

## PKK-ya məxsus daha bir sığınacaq ələ keçirilib



Türkiyənin təhlükəsizlik qüvvələri ölkənin Hakkari bölgəsindəki Şemdinli rayonunda PKK terror təşkilatına məxsus böyük bir sığınacağı ələ keçiriblər.

Mağarada yerləşən uzunluğu 125, hündürlüyü 3, eni isə 1 metr olan sığınacaqda bomba hazırlamaq üçün avadanlıq, çox sayda geyim, qida məhsulu, kitab, qeyd dəftərləri və s. aşkarlanıb.

## Minskdə helikopter ekipajları yarışacaqlar



İyulun 23-29-da Belarusun paytaxtı Minsk şəhərində helikopter idmanı üzrə dünya çempionatı keçiriləcək.

Bu barədə Belarusun Aviasiya İdmanı Federasiyasından məlumat verilib.

Dünya çempionatı Borovaya aerodromunda keçiriləcək. Yarışda 15 ölkədən 40-dan çox ekipaj iştirak edəcək. Çempionatın ən maraqlı hissəsi helikopterlərin yarışması olacaq.

İdman tədbiri çərçivəsində tamaşaçılar, həmçinin aviasiya festivalını da izləyə biləcəklər.

## Yaponiya özünümüdafiə qüvvələrinin quru qoşunlarının komandanlığında islahatlar aparır



Yaponiyada 1954-cü ildən bəri ilk dəfə olaraq quru qoşunlarının komandanlığında islahatlar aparılır. Bunun nəticəsində beş regional hərbi hissə ümumi komandanlıq altında birləşəcək.

Ümumi birləşmənin komandanlığı birbaşa Müdafiə nazirinə tabe olacaq. Müdafiə nazirindən daxil olan əmr özünümüdafiə qüvvələrinin birləşmiş qərargah rəisləri səviyyəsində təhlil edildikdən sonra quru qoşunlarının ümumi komandanlığına ötürüləcək.

## "Armeniareport": Ermənistan hökumətinin sosial-iqtisadi problemlərin həlli ilə bağlı verdiyi vəd yalandır



Ermənistan hökuməti vətəndaşları sosial-iqtisadi problemlərin həll olunacağına inandırmağa çalışır. Ancaq verilən vədlər yalandır.

Bu fikir Ermənistanın "Armeniareport" saytında yayılmış məqalədə yer alıb.

Yazıda qeyd olunur ki, sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılması ümidverici deyil. Çünki ölkədə qanunlara uyğun tədbirlər görülmür. Problemlərin həlli yalnız ölkəni tərk etməkdir. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Hökumətin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum edir. Ölkədə iqtisadiyyatın inkişafı real deyil.

**AZƏRTAC-ın materialları əsasında**

## Medallı igidlərimiz

# "Ölümsüz ömür yaşayır oğlum"



*Respublikamız son illərdə böyük inkişaf yolu keçib. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda bütün sahələrdə böyük nailiyyətlər əldə olunub. Müharibə veteranlarının, şəhid ailələrinin, müharibədə sağlamlığını itirmiş insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər də göz önündədir. Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə diqqət və qayğının əsasını ulu öndər Heydər Əliyev qoyub. Bu gün həmin siyasət yeni mərhələdədir. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Hər bir əlilin, şəhid ailəsinin qayğılarını dövlət öz üzərinə götürür və qısa müddətdə həll edir.*

Bu günlərdə şəhid Həmidağa Nağıyevin anım günü münasibəti ilə ailə üzvlərini ziyarət etdik.

Yol boyu düşünürəm: yurdumuza yaz gəlib. Həmidağa da fəsillərin ən füsunkarı, nazlısı olan yazda dünyaya gəlmişdi. Bəlkə də yazın havası ilk dəfə ciyərlərinə dolan anda Vətən sevgisi qəlbində məskən salıbmış. Bu sevgi elə bir əzəmətli qala ucaltmışdı ki... Sonralar da bu fəsildə Vətənimizin valehedici gözəlliklərinin şahidi olaraq, yaza vurulmuşdu. Yazda da şəhid oldu Həmidağa.

Həmidağa Nağıyev 1975-ci ildə Bilgəh qəsəbəsində anadan olub. 1983-cü ildə 142 nömrəli orta məktəbdə 8 illik təhsil alıb və Zabrat qəsəbəsindəki 71 nömrəli texniki peşə məktəbini bitirdikdən sonra 1993-cü ilin aprelində hərbi xidmətə yola düşüb. Döyüş yolu Qançanağı, Hacılı, Ağdam, Ağdərə, Başkənd və başqa cəbhə bölgələrindən keçib. 1995-ci il martın 4-də Tovuzun Əlibəyli kəndində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşub, şəhid olub. Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti mayor İlkin Qayıbov şəhidin anası Qənirə xanıma idarə rəisinin adından belə qəhrəman övlad tərbiyə etdiyi üçün təşəkkürünü çatdırdı. Bildirdi ki, şəhid ailələri daim Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin diqqətindədir. "Belə bir gündə sizinlə birlikdə olmaqdan könül xoşluğu yaşayırıq. Şəhidlər ölməyib, onlar hamımızın ürəyində yaşayırlar. Bu gün güclü ordumuz var. Tezliklə üçrəngli bayrağımız əzəli torpaqlarımızda dalğalanacaq. O gün uzaqda deyil".

Vətənə məhəbbət körpəlikdən, beşikdə ana laylalarından, nağıllardan başlayır. Qənirə ananın vətənpərvərlik hisslərinin çox yüksək olmasını hiss etdik. Ana qürurla dedi ki, Vətən sevgisi müqayisə olunmazdır. "Mən fəxr edirəm ki, oğlum Vətəni canından da çox sevərək, o sevginin zirvəsinə ucalanların sırasındadır. Həmidağa 14 güllə yarası alsa da, döyüşdən çıxmayıb. Balamı düşmən snayperi sinəsindən vurub."

Qənirə ana kövrəkliklə evi süzür, asta səslə: - Bu evi dövlət başçımız oğlum şəhid olduğuna görə verib. Bəzən mənə elə gəlir ki, oğlum sağdır. Burada yaşayır. Dəfələrlə əlimdə açar qapını açmaq yerinə zəngi basmışam. Və onun qapını açacağını gözləmişəm. Oğlumun yoxluğuna inana bilməmişəm, indi də inanmıram. Oğlum şəhid olub, şəhidlər isə ölmürlər. Ölümsüz ömür yaşayır oğlum.

Qənirə ana, sən hisslərində yanılmırsan. Analar yanılmazlar. Dünyanın o başında belə olsa, övladlarını hiss edərlər. Şəhidlər ölmürlər, Qənirə ana. Şəhidlər əbədiyaşardır. Onlar bizim ürəklərimizdə yaşayırlar...

Ana şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirdi.

Bilgəh qəsəbəsindəki Mədəniyyət evi və küçələrdən biri Həmidağanın adını daşıyır.



Təhsil aldığı məktəbdə anım günləri keçirilir. Ailə üzvləri də bu tədbirlərə dəvət olunur.

Şəkil albomlarını vərəqləyərkən şəhidin qardaşı Yusif "Həmidağa kimi bir qardaşım olması ilə daim fəxr etmişəm" dedi. Həmidağaya xidmət etdiyi hərbi hissədən verilən, bu gün ən əziz əşya kimi saxladıqları xasiyyətnamədə yazılanlarla qürurlandığını bildirdi.

Həmidağanın döyüş yolunu onunla birlikdə keçən cib dəftərçəsindəki şeirlərə nəzər salıram: "Anama, bacıma olun siz dayaq" - Həmidağa duyumlu gənc olub. Şeirə, şeiriyyətə böyük maraq göstərib. Hərdən şeirlər də yazardı. Bu misra onundu. Mənə elə gəlir ki, bu şeiri dağlara xitabən yazıb Həmidağa...

**Zümrüd SƏMƏDOVA,**
**dövlət qulluqçusu**

---

*Müdafiə Nazirliyi və Mətbuat Şurası Azərbaycan Ordusunda həyata keçirilən genişmiqyaslı islahatların, qoşun növlərində və qismlərində əldə olunan nailiyyətlərin, tətbiq edilən qabaqcıl təcrübələrin, hərbi hissələrdə aparılan tikinti-quruculuq işlərinin, hərb işinin müxtəlif sahələrində qazanılan uğurların, eləcə də hərbi mövzuları əks etdirən digər məsələlərin kütləvi informasiya vasitələrində obyektiv işıqlandırılması, təbliği, habelə ictimaiyyətlə ordu arasında əlaqələrin genişləndirilərək daha da inkişaf etdirilməsinin təmin olunması məqsədilə yazı müsabiqəsi elan edir.*

# "Hər birimiz Vətənə xidmət edirik"

## mövzusunda yazı müsabiqəsi

"Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsi Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunur.

Müsabiqəyə 2018-ci il martın 30-dan iyunun 10-dək olan müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında dərc edilən yazılar buraxılacaq. Müsabiqəyə təqdim olunan istiqamətləndirici mövzular aşağıdakılardır: təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və Ali Baş Komandan İlham Əliyevin davam etdirdiyi müasir ordu quruculuğu, Azərbaycan Ordusunun döyüş hazırlığı, şəxsi heyətin nizam-intizamı, sosial-məişət şəraiti, təminat və təchizatı, Azərbaycan Ordusunun beynəlxalq hərbi əməkdaşlığı, Azərbaycanın hərb tarixi, uğurlu döyüş əməliyyatları, qazanılan qələbələr, hərb elminin inkişafı, hərbi təhsilin perspektivləri, Azərbaycan əsgərinin hərbi vətənpərvərlik tərbiyəsi, Vətənə, dövlətə, hərbi anda sədaqət, hərbi dostluq, şücaət, igidlik və qəhrəmanlıq, ordu-ictimaiyyət əlaqələri.

Müsabiqəyə təqdim olunan yazılarda üstünlük mövzunun dolğun əhatə edilməsi, faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti, ifadə vasitələrinin zənginliyi, oxucu üçün informativlik dərəcəsi, müqayisəli təhlil üslubundan istifadəyə veriləcək.

Janr məhdudiyyəti nəzərdə tutulmayan yazılar Azərbaycan, ingilis və rus dillərində olmalı, 9-11 min işarə həcmindən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda "Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir" qeydi olmalıdır.

Müsabiqə üçün yazılar ayrıca zərfdə şəxsən və ya müəllifin elektron ünvanından elektron qaydada təqdim edilməlidir.

Yazı müəllifi aşağıdakı sənədləri təqdim etməlidir: şəxsiyyət vəsiqəsinin surəti (təqdimat elektron qaydadadırsa, skan olunmuş PDF formatında), kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti (təqdimat elektron qaydadadırsa, skan olunmuş PDF formatında), əlaqə vasitələri - iş və mobil telefonları (təqdimat elektron qaydadadırsa, Word faylında, Times New Roman şriftində), müsabiqə üçün təqdim edilən yazının yayımlandığı qəzet və jurnalın 1 (bir) nüsxəsi (təqdimat elektron qaydadadırsa, skan olunmuş PDF formatında), yazı elektron media resursunda dərc olunubsa, bunu təsdiqləyən link, yazının A4 formatında ayrıca vərəqdə nüsxəsi (təqdimat elektron qaydadadırsa, müəllifin adı qeyd edilməməklə Word faylında).

Qeyd: yazını elektron qaydada təqdim etmək istəyən şəxslər yuxarıda göstərilən sənədləri ms.musabiqe@gmail.com elektron poçt ünvanına göndərməlidirlər.

Müsabiqə üçün yazılar 2018-ci il iyunun 10-dək həftənin iş günləri saat 10.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz 4 ünvanında (əvvəlki Teymur Əliyev 38 ünvanı - Azərbaycan Mətbuat Şurasının ofisi) qəbul ediləcək.

Həmçinin müsabiqə üçün yazılar müvafiq şərtlər yerinə yetirilməklə ms.musabiqe@gmail.com elektron poçt ünvanına da göndərilə bilər.

Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

Şərtlər: Yazı müəllifinin konkret kütləvi informasiya vasitəsində çalışması şərtdir. Müsabiqə üçün təqdim edilən yazı müəllifin çalışdığı kütləvi informasiya vasitəsində yayımlanmalıdır. Müsabiqəyə təqdim edilən yazıların Azərbaycan Mətbuat Şurasının "qara siyahı"sında yer alan kütləvi informasiya vasitələrində yayımlanması qadağandır.

Yazı müsabiqəsinin mükafat fondu aşağıdakı qaydada nəzərdə tutulub: I yer (1 nəfər) - 1500 manat, II yer (2 nəfər) - 1000 manat, III yer (3 nəfər) - 700 manat, həvəsləndirici mükafatlar (5 nəfər) - 200 manat.

---

Kapitan Nəsirov Orxan Ziyad oğluna 2017-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant Zəkəriyəyev Mansur Aləddin oğluna 2016-cı ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 190
Nüsxə 3525